## Исследование избирательной проницаемости липидных мембран для ионов и органических соединений под действием мембраноактивных соединений

*д.б.н., проф. Касумов Х.М. Гасанов С.М.*
*khalil.gasimov@gmail.com.*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

**Аннотация:** Под действием молекул амфотерицина В, микогептина и леворина показана их способность формировать в липидных мембранах каналы и с их помощьютранспортировать через мембраны различные ионы и органические соединения. В присутствии полиенов показана возможность транспортировать через мембраны ионы калия, натрия, кальция, а также углеводов в следующем ряду их проницаемости: рибоза, арабиноза. глюкоза и сахароза.

**Ключевые слова.** Полиеновые антибиотики, липидные мембраны, ионы, органические соединения, избирательная проницаемость.

## Investigation of selective permeability of lipid membranes for ions and organic compounds under the action of membrane-active preparation

*doctor of biology, prof. Kasumov Kh.M. Hasanov S.M.*
*khalil.gasimov@gmail.com.*
*Azerbaijan State Academy of Physical Education and Sports*

**Annotation.** Under the action of amphotericin B, mycoheptin and levorin molecules, their ability to form channels in lipid membranes and to transport various ions and organic compounds through the membranes is shown. In the presence of polyenes, it is shown that it is possible to transport through membranes ions of potassium, sodium, calcium, as well as carbohydrates in the following series of their permeability: ribose, arabinose, glucose and sucrose.

**Keywords.** Polyene antibiotics, lipid membranes, ion, organic compounds, selective transport.

## İNKLÜZİV TƏHSİL VƏ İDMANDA İNKLÜZİYA

*m. N.R.Elyasova*
*elyasovanarmin@gmail.com*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr 2019
Dərc olunub: 5 dekabr 2019
© 2019 ADBTİA. Bütünhüquqlarqorunur.

**Annotasiya:** Məqalədə inklüziv təhsil anlayışı, respublikamızda tətbiqi idmanda inklüziya anlayışları şərh olunmuşdurş İnklüziv təhsil hal-hazırda aktual məsələdir və bununl bağlı bir çox beynəlxalq və yerli proqramlar tətbiq olunur. Təhsil hamı üçün əlçatan və bərabər olmalıdır.
**Açar sözlər:** idman, inklüziv təhsil, idmanda inklüziya

"Təhsil – hər bir insanın böyük əhəmiyyətə və potensiala malik haqqıdır. Azadlıq, demokratiya və dayanıqlı inkişaf prinsipləri təhsil əsasında qurulur... "Hamı üçün təhsil"dən daha vacib digər bir vəzifə yoxdur." Kofi Annan. 1998

Son bir neçə onillikdə YUNESKO və tərəfdaşları bütün dünyada təhsilin bütün səviyyələrində bütün uşaqların inklüziv olmasını təmin etməyi prioritet hala gətirdilər. Başqa sözlə, bütün uşaqların təhsildə heç bir ayrıseçkilik etmədən, yerindən, irqindən, yaşından, sosial-iqtisadi vəziyyətindən və sairə xüsusiyyətlərindən asılı olmayaraq faydalanma hüququnu təmin etmək onların məqsədidir. Son illərdə onlar uşaqların məşğulluq, istirahət və idman kimi digər sahələrə tam daxil olma yollarını araşdırırlar.

"İnklüziv təhsil" termini çox zaman səhv başa düşülür. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında"

Konvensiyasının 24-cü maddəsi əlilliyə daha münasib tərif verir. Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanıyır və dövlətlərin üzərinə inklüziv təhsili tətbiq etmək öhdəliyini qoyur. Bu öhdəliyə aşağıdakılar daxildir:

1)Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmamasını təmin etmək;

2)Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;

3)İnklüzivliyin tam şəkildə təmin olunması üçün akademik və sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğunlaşdırılmış zəruri dəstək tədbirlərini təmin etmək.

Hər hansı formada seqreqasiya və ya təhsildən kənarlaşdırılma, məsələn, əlilliyi olan uşaqların xüsusi məktəblərdə və ya adi məktəblərin daxilindəki xüsusi bölmələrdə təhsil alması, yaxud natamam inteqrasiya inklüziv təhsilə daxil deyil.

İnklüziv təhsilin əsas prinsipləri aşağıdakılardır:

1.İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;

2.Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;

3.Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;

4.Bütün insanlar bir-birinə lazımdır;

5.Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;

6.Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;

7.Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır;

8.İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanı imzalayan tərəflərdən biri kimi, Azərbaycan da inklüziv təhsili həyata keçirmək öhdəliyini üzərinə götürmüşdür. İnklüziv təhsilin tətbiqində boşluqları aradan qaldırmaq üçün önəmli addımlar atılmışdır. 2017-ci ildə əlilliyi olan şəxslərin bərabər təhsil imkanlarını təmin etmək məqsədi ilə "2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir [1].

Müasir inkişaf etmiş cəmiyyətlərdə hər insanın fərqliliyini qəbul etmək, fərqli insan qruplarının maraqlara toxunan qərarın qəbulunda onların iştirakını təmin etmək ideyası hökm sürür. İnklüziv olmaq hər kəsə bərabər şəkildə qiymət vermək, müxtəlifliyə hörmət etmək və qəbul etmək deməkdir.

Cəmiyyətin inklüziv olması hər sahədə inkişafın davamlı olması üçün əlverişli şərait yaradır. İnklüziv cəmiyyət isə şəxsin cinsi, fiziki, siyasi, iqtisadi, etnik, dini, mədəni və digər müxtəlifliklərindən asılı olmayaraq onun hüquq və azadlıqlarının tam şəkildə təmin edildiyi, heç bir ayrı – seçkiliyin olmadığı bir cəmiyyətdir.

İdman son illərdə dünya mənzərəsini xeyli dəyişdirib. İnsanların ətraflarından gözləntisi düzgün, ədalətli qərarlarla idarə edilən, bərabərliyin olduğu, fərqliliklərin qəbul olunduğu, təhlükəsiz idman mühitinin yaradılmasıdır. Amma bu əmr deyil, arzu və istəkdir.

İdman var olduğu cəmiyyətlərin demoqrafiyasına da ciddi şəkildə təsir göstərir. Məsələn, Avstraliya əhalisinin 25 faizi xaricdə anadan olur, 50 faizə yaxın insanların valideyni başqa ölkədə dünyaya gəlir (yaxud da başqa ölkənin vətəndaşlarıdır) . Burada 260 dildə danışırlar, 5 nəfərdən biri əlilliyi olan şəxs kimi dünyaya gəlir, əhalinin 50 faizdən yuxarısını qadın yaxud qızlar təşkil edir. Mədəni, linqivistik və cinsi cəhətdən fərqlənən cəmiyyətlər müxtəlifliyi qeyd edən, ona daxil olmağı təşviq edən və ən əsası insanları özləri kimi hiss etdirən idman seçimləri edirlər [6].

Hər kəs, seçdikləri hər növdə, hansı qabiliyyətdə olursa olsun, fəal iştirak etmək imkanına sahib olmalıdır. Hər bir idman təşkilatı yaşından, cinsindən, əlilliyindən, mədəni və ya dini mənşəyindən və ya cinsi oriyentasiyasından və ya hər hansı bir insanın kənarda qalmasına və ya təcrid olunmasına səbəb ola biləcək digər xüsusiyyətlərdən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinə açıq və açıq olmağa

çalışmalıdır.

Əlilliyi olan uşaqlar idmanda iştiraklarını məhdudlaşdıran bir çox maneə ilə üzləşirlər. Bu maneələrin bəziləri fiziki, bəziləri isə sırf cəmiyyətdə imkanların olmaması ilə əlaqədardır. Əlilliyi olmayan bir çox insan əlilliyi olan şəxslərin qarşılaşdıqları maneələri başa düşməkdə çətinlik çəkir və buna görə də onları idmanın hər hansısa sahəsində bir komanda daxilinə cəlb etmə cəhdləri uğurlu alınmır.. Əlilliyi olan şəxslərin üzləşdikləri digər ümumi maneələr arasında idman imkanlarının olmaması, idman oynamaq üçün əlverişli şəraitin olmaması və idman haqqında mənbələrə məhdud giriş imkanları daxildir.

İdmanda inklüziya, cəmiyyətə bu mesajı verir: bütün uşaqların əlilliyindən asılı olmayaraq idmanla məşğul olmaq üçün bərabər imkanları olsun.

Bəs təhsildə və idmanda inklüziya eyni mənanı daşıyır deyə bilərik? Xeyir. Əsas fərq ondan ibarətdir ki, təhsil icbaridir və təhsilə qoşulmaq könüllü deyil. Amma məktəblərdə bədən tərbiyəsi dərslərini çıxmaqla idmanla məşğul olmaq könüllüdür. Başqa sözlə kimsə təhsil almırsa cəmiyyətdən xaric olunur. Amma kimsə idmanla məşğul olmursa ona qarşı heç bir ayrı – seçkilik nümayiş oluna bilməz. İnsanlar əlilliyinin olub olmamasından asılı olmayaraq idmanla məşğul olmağa özləri qərar verir [4].

Təhsillə məşğul olmağın vacib olmasını anlamaq asandır. Bəs idmanla məşğul olmaq? İdmanla məşğul olmaq əlilliyi olan şəxslərin sosiallaşmasını təmin edir. Həmçinin onların fiziki və zehni sağlamlıqlarını təmin edir. Əlilliyi olan şəxsləri idmandan uzaqlaşdırdıqda onları idmanla bağlı bütün üstünlüklərdən məhrum etmiş oluruq.

Son nəticəyə gələndə onu demək olar ki, bu gün inklüziv cəmiyyət bəşəriyyət qarşısında duran əsas çağırışlardan biridir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı." Bakı: Azərbaycan Respublikasının Prezidenti, 2017.
2. Dövlət Statistika Komitəsi. "Səhiyyə, sosial müdafiə və idman sahələri üzrə milli statistika." http://www.stat.gov.az/source/healthcare/?lang=en (Son baxıldığı tarix: 28/08/2017), Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2017.
3. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası və onun Fakültativ Protokolu."http://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf (Son baxıldığı tarix: 25/08/2014), 2006.
4. https://sportmanagementhub.com/inclusion-in-sport/
5. https://www.playbytherules.net.au/got-an-issue/inclusion-and-diversity
6. https://www.clearinghouseforsport.gov.au/knowledge_base/organised_sport/sport_and_government_policy_objectives/Cultural_Diversity_in_Sport

## İnclusive education and inclusion in sport

*N.R.Elyasova*
*Azerbaijan State Academy of Physical Culture and Sport*

**Annotation:** The article describes the concept of inclusive education, its application in the republic and the concept of inclusion in sports. Inclusive education is now a topical issue, and many international and local programs have been developed and implemented. Education should be accessible and equal to all.
**Key words:** sport, inclusive education, inclusion in sport

## Инклюзивное образование и инклюзия в спорте

*Н.р.Эльясова*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

**Аннотация:** В статье раскрывается смысл инклюзивного образования,важность его распространения на территории республики а также внедрения ее в спорт. Актуальность инклюзивного образования на данный момент очень высока в связи с чем создано много международных и локальных программ.Поэтому инклюзивное образование должно быть доступным и для всех.

**Ключевые слова:** спорт, инклюзивное образование, инклюзия в спорте

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN İDMANÇILARININ BEYNƏLXALQ ÖLKƏLƏRƏ İNTEQRASİYASINDA XARİCİ DİLLƏRİN ROLU

*İdman ustası, Etibar Quliyev*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr2019
Dərc olunub: 5 dekabr 2019
© 2019 ADBTİA. Bütünhüquqlarqorunur.

**Annotasiya**: Məqalədə, Azərbaycan idmançılarının müstəqillik dövründə beynəlxalq ölkələrə inteqrasiyasında xarici dillərin rolu,məsələsi iləbağlı müvafiq qanunvericilik aktları, dövlət proqramları, digər rəsmi sənədlər, Sərəncam və Fərmanların elmi cəhətdən təhlili, ingilis dilinin hal-hazırda dünyada diplomatiya, kommersiya, elmi-texniki və kütləvi informasiyada rolu, müstəqillik dövründə idmançıların beynəlxalq əlaqələrdə xarici dillərin mövcud vəziyyətini öyrənmək və təhlili, dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların Azərbaycan Respublikasında təhsil almalarına şərait yaradılması və onların ixtisaslaşdırılması strateji cəhətdən faydası, müstəqillik dövründə idmançıların beynəlxalq əlaqələrdə xarici dillərin mövcud vəziyyətinin təhlili,bütün inkişaf etmiş ölkələrin dil bacarıqları dövrün ən zəruri, aktual problemləri,xalqlar və mədəniyyətlərarası əlaqələrin öyrənilməsində, insanlar arasında körpü salınmasında, habeləbiznes dünyasında xarici dil bilmənin rolu,xaricidillərin inkişafı üçün Azərbaycanda yaradılan dillər üzrə tədris müəssisələrinin səviyyəsinin araşdırılması haqqında və başqa problemlər öz həllini tapmışdır.

**Açar sözlər:**Beynəlxalq Olimpiya Komitəsi, Milli Olimpiya Komitəsi, Azərbaycan idmançıları, beynəlxalq ölkələr, beynəlxalq əməkdaşlıq, dünyaya inteqrasiya, xarici dillər, “İslahat Proqramı”, Azərbaycan bayrağı, idman, bədən tərbiyəsi, idman siyasəti, tədrismüəssisələri, maqnitafon-lent, vətənpərvərlik tərbiyəsi, sərgi və yarmarkalar.

Bütün inkişaf etmiş ölkələrin dil bacarıqları dövrün ən zəruri, aktual problemlərindən biridir. Xalqlar və mədəniyyətlərarası əlaqələrin öyrənilməsində, insanlar arasında körpü salınmasında, habelə biznes dünyasında xarici dil bilmənin rolu əvəzsizdir. Bu, hər şeydən əvvəl, idmançı-gənclərə gələcəkdə çoxdilli bir mühitdə işləmək üçün geniş imkanlar açır. Bugünki iş dünyasında xarici dil bilən mütəxəssislərə yaranan tələbata müvafiq olaraq xarici dillərin keyfiyyətli tədrisinə də tələb artır [9].

Müstəqillik illərində bütün inkişaf etmiş ölkələrin beynəlxalq əlaqələr sahəsində humanitar meyarın təsdiqi prosesi müşahidə olunur. Müasir beynəlxalq münasibətlərdə xarici dillər problemləri xüsusi əhəmiyyət kəsb edir. Onların həlli beynəlxalq münasibətlərin vəziyyətindən, onlarda mövcud olan gərginlik səviyyəsindən, habelə, bu prosesə yalnız dövlətlərin rəsmi nümayəndələrinin deyil, həm də ictimaiyyət nümayəndələrinin, o cümlədən idman